# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

30 may 2019-cu il
Cümə axşamı

№ 20 (3435)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT EDİB

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.

Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı abidənin önünə əklil qoyub.

Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Yüz bir il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən - Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.



Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.

Ulu öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü-Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır".

Ümummilli liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının sərəncamları ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olundu və AXC-nin 100 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Xalqımız Cümhuriyyətin yarandığı 28 May – Respublika Gününü bu il də milli bayram kimi qeyd edib.

***

**Mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.**

**Dövlətimizin başçısı rəsmi qəbulda nitq söyləyib.**

# MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİ KEÇİRİLİB

## *PREZİDENT İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK EDİB*

Mayın 23-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.

Azərbaycan Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başlayıb.

Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək müqəddəs "Qurani-Kərim"in nazil olduğu, on bir ayın sultanı mübarək Ramazan ayı münasibətilə açılan iftar süfrəsinə dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə və qonaqlara dərin minnətdarlığını bildirib.

Mərasimdə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Melih Yevdayev və Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete çıxış ediblər.

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.

Prezident İlham Əliyev bildirib ki, dünyada gərginliyin davam etdiyi bir vaxtda Azərbaycanda sabitliyi qorumaq, xalqın rifahını yaxşılaşdırmaq və ölkəmizi mümkün risklərdən qorumaq bizim əsas vəzifəmizdir. "Biz müasir dövlət qurmuşuq. O dövlət ki, dərin milli-mənəvi təməl üzərində qurulub", - deyən Prezident İlham Əliyev İslam dəyərlərini milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsi kimi xarakterizə edib, Azərbaycanın İslamı olduğu kimi, sülh, mərhəmət dini kimi dünyaya çatdırdığını və bu fəaliyyətin bundan sonra da davam etdiriləcəyini bildirib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev bir daha vurğulayıb ki, Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. "Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq", - deyən dövlətimizin başçısı Cocuq Mərcanlı kəndinin və orada Şuşa məscidinin bənzərinin inşa olunmasının xalqımızın əyilməz ruhunu təcəssüm etdirdiyini bildirib...

Sonra iftar süfrəsi açılıb.

# PREZİDENT İLHAM ƏLİYEV DƏNİZKƏNARI MİLLİ PARKDA GƏZİNTİYƏ ÇIXIB

Mayın 28-də Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri paytaxtın Dənizkənarı Milli Parkında gəzintiyə çıxıblar.

Dövlətimizin başçısı və birinci xanım Dənizkənarı Milli Parkda istirahət edən sakinlərlə və şəhərimizin qonaqları ilə görüşüblər.

***Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 22-də Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak ediblər.***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Bakı Sərgi Mərkəzində XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransının açılışında iştirak edib.**

**Dövlətimizin başçısı tədbirdə nitq söyləyib.**

**Sonra Prezident İlham Əliyev sərgi ilə tanış olub.**

***Azərbaycan Prezidenti İlham Əliyev mayın 29-da Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) prezidenti Aleksandr Çeferinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsindəki Pir Həsən ziyarətgahında təşkil olunan iftar mərasimində iştirak ediblər.***

**Azərbaycan Prezidenti İlham Əliyev mayın 23-də Çin Xalq Respublikasının Xarici İşlər naziri Van Yinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı mayın 23-də Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Karsın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri mayın 23-də Gürcüstanın milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri xanım Salome Zurabişviliyə təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Mayın 24-də Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Əmək və Sosial Müdafiə naziri Maksim Topilini qəbul edib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı mayın 24-də Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı mayın 24-də Efiopiyanın milli bayramı münasibətilə Federativ Demokratik Respublikasının Prezidenti zati-aliləri xanım Sahle-Uork Zevdeyə təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Mayın 25-də ölkəmizin rəhbəri Azərbaycan Respublikasının mədəniyyət xadimlərinin mükafatlandırılması haqqında sərəncamlar imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev mayın 25-də İndoneziya Respublikasının Prezidenti seçilməsi münasibətilə zati-aliləri cənab Coko Vidodoya təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud, Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahzrət II Elizabet, İtaliya Respublikasının Prezidenti Sercio Mattarella, Yaponiyanın İmperatoru Naruhito, Çin Xalq Respublikasının Sədri Si Cinpin, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Ukrayna Prezidenti Vladimir Zelenski, Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer, Finlandiya Respublikasının Prezidenti Sauli Niinistö, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko, Rumıniyanın Prezidenti Klaus Verner İohannis, eləcə də digər dövlət və hökumət başçıları milli bayram – Respublika Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndəriblər.**

# DAXİLİ İŞLƏR ORQANLARININ VƏ DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNƏ

*Hörmətli həmkarlar!*

*Yaranmasının 101-ci ili tamam olan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın müstəqillik əzmini nümayiş etdirən yeni dövlətin və cəmiyyətin nümunəsi olmaqla istiqlal tariximizin mühüm və şərəfli səhifələrindəndir.*

*Ötən əsrin sonlarında öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanda mövcud olan böhranlı vəziyyət və çətinliklər məhz ümummilli lider Heydər Əliyevin qətiyyəti və gərgin səyləri nəticəsində aradan qaldırılmış, respublikamızda sabitlik yaradılaraq davamlı inkişaf prosesinin əsası qoyulmuşdur.*

*Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu işləri xalqımızın mənafeyinə, rifahına, suveren dövlətimizin iqtisadi və hərbi qüdrətinin artmasına xidmət edir. Zati-alilərinin böyük uzaqgörənliklə davam etdirdiyi hüquq mühafizə siyasəti sayəsində, Azərbaycan, vətəndaşlarımızın asayişinin və təhlükəsizliyinin etibarlı qorunduğu dövlətlərdən birinə çevrilmişdir.*

*Əminəm ki, cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi kimi mühüm funksiyaları bundan sonra da əzmlə həyata keçirəcək, qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirəcəksiniz.*

*Respublika Günü münasibətilə bütün şəxsi heyəti, həmçinin hörmətli veteranlarımızı, torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalmış, xidməti borcunu yerinə yetirərkən həlak olmuş əməkdaşların və hərbi qulluqçuların ailə üzvlərini ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, səadət, xidmətdə və həyatda uğurlar arzulayıram.*

**Ramil Usubov,**
**Azərbaycan Respublikasının**
**Daxili İşlər naziri, general-polkovnik**
*27 may 2019-cu il.*

# "DAXİLİ QOŞUNLARLA JANDARM QÜVVƏLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ YÜKSƏK SƏVİYYƏDƏDİR"

**Mayın 22-dən 25-dək Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikasına rəsmi səfər edib.**



Səfərin ilk günü nümayəndə heyəti Türkiyə Respublikasının Jandarm baş komandanı, ordu generalı Arif Çetin ilə görüşüb. Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə ordu generalı A.Çetin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Jandarm Qüvvələri arasında işgüzar əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə olmasını diqqətə çatdıraraq, Qoşunlarımızın daha da təkmilləşdirilməsi üçün daima lazımi dəstək göstərməyə hazır olduqlarını vurğulayıb.

General-leytenant Ş.Məmmədov səmimi və qonaqpərvər qəbul üçün dərin təşəkkürünü bildirərək, dostluq və qardaşlıq əlaqələrimizin dərinləşməsində bizim də maraqlı olduğumuzu deyib.

Həmin gün nümayəndə heyəti Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Yaşar Gülər, Daxili İşlər nazirinin müavini Muhterem İnce, Jandarm və Sahil Təhlükəsizlik Akademiyasının rəisi Hüseyin Kurtoğlu ilə görüşüb, Jandarm Baş Komandanlığında Əməliyyatların idarə edilməsi Mərkəzində olub.

Səfər çərçivəsində Jandarm Özəl Asayiş Komandanlığında nümayəndə heyətinə ictimai asayişin qrup şəklində pozulması, kütləvi iğtişaşların qarşısının alınması və silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsi üzrə göstərici məşğələlər nümayiş etdirilib. Bununla yanaşı, nümayəndə heyəti Türkiyə Jandarm Qüvvələrində təlim-tədrisin təşkili və bütün növ maddi-texniki təminat məsələləri ilə də yaxından tanış olub.

***DİN Daxili Qoşunlarının Mətbuat Xidməti***

# POLİS AKADEMİYASINDA

## *ELMİ-PRAKTİKİ KONFRANS*

**Polis Akademiyasında ali təhsil müəssisələrinin tələbə və magistrantları üçün "Müasir dövrdə cinayət qanunvericiliyinin aktual problemləri" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir. Konfransda Bakı Dövlət Universitetinin, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının, Dövlət Gömrük Komitəsinin Akademiyasının və Polis Akademiyasının təmsilçiləri iştirak etmişlər.**







Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev konfransı açaraq onun işinə uğurlar arzulamışdır. Xəzər rayonunda yerləşən Səhiyyə Nazirliyinin 5 saylı Uşaq evindən dəvət olunmuş valideyn himayəsindən məhrum azyaşlılara konfrans iştirakçıları tərəfindən hədiyyələr təqdim edilmişdir.

Konfrans cinayət qanunvericiliyinin aktual problemlərini özündə əks etdirən çıxışlarla davam etmişdir. BDU-nun magistrantı X.Dadaşzadə və 2-ci kurs tələbəsi C.Abışzadə, Azərbaycan Respublikası Prezidenti yanında DİA-nın magistrantı E.Tağıyeva və 3-cü kurs tələbələri L.Kərimova, F.İbrahimzadə, DGK Akademiyasının 3-cü kurs tələbələri F.Camalzadə, İ.Novruzlu, C.Muxtarova, DTX-nın H.Əliyev adına Akademiyasının kursantları H.Həsənli, C.Əliyev, Polis Akademiyasının magistrantı A.Vəliyev, Tədris-metodiki şöbənin inspektoru T.Hümbətli, 3-cü kurs kursantı N.Ceyidli tezislərlə çıxış edərək müasir dövrdə cinayət qanunvericiliyinin müxtəlif institutları üzrə mövcud problemlər, onların aradan qaldırılması istiqamətində təkliflərini vermişlər.

Məruzələr ətrafında fikir mübadiləsi aparılmışdır.

Sonra Polis Akademiyasının və Bakı Dövlət Universitetinin professor-müəllim heyətinin birgə müəllifliyi ilə nəşr edilmiş "Hüquqi şəxslərin cinayət-hüquqi məsuliyyəti" adlı dərs vəsaitinin təqdimatı keçirilmişdir.

Tədbirin sonunda iştirakçılara sertifikatlar və hədiyyələr təqdim edilmiş, xatirə şəkli çəkdirilmişdir.

***Natiq Abdullayev, polis kapitanı***

# NİMDAŞ "QVARDİYAÇILAR" PANİKA İÇİNDƏ

**Ölkəmizdə insan hüquq və azadlıqlarının nümunəvi təmini, cinayətkarlıqla qətiyyətli mübarizə, cəza siyasətinin humanistləşdirilməsi, sabitliyin, əmin-amanlığın etibarlı qorunması vətəndaş-dövlət münasibətlərinin və milli həmrəyliyin möhkəmləndirilməsinə xidmət edir. Bu reallıqlar cəmiyyətin bütün təbəqələri ilə yanaşı, respublikamıza gələn, burada fəaliyyət göstərən əcnəbilər tərəfindən də rəğbətlə qarşılanır.**

Lakin Azərbaycandakı dinamik inkişafın, dayanıqlı sabitliyin əleyhinə çıxaraq heç bir siyasi, ictimai, sosial platformaları olmayan, özlərini "hüquq müdafiəçisi", "müstəqil ekspert" adlandıran elə şəxslər var ki, onlar məqsədli şəkildə sosial mediadan şər-böhtan yağdırırlar. Görünür, cəmiyyətin əmin-amanlıq, təhlükəsizlik içində yaşaması onları da narahat edir. Bu qrup – nimdaş "qvardiyaçılar" süni ajiotaj yaratmağa çalışırlar.

Ağa qara deməyə adət etmiş belələri bəlli siyasi mərkəzlərdən aldıqları sifarişlər əsasında cəmiyyətdə qarşıdurma yaratmaq üçün uğursuz cəhdlər göstərirlər. Onlar antiazərbaycançı dairələrin diqtəsilə vaxtaşırı polis orqanlarında, cəzaçəkmə müəssisələri və istintaq təcridxanalarında saxlanılan şəxslərə işgəncə verilməsi barədə iddialar səsləndirirlər. Özlərini hüquq müdafiəçiləri adlandıran bu adamlar illərdir ki, ölkəmizlə bağlı belə yalan informasiyaları tirajlamaqla məşğuldurlar.

Azərbaycanın dünyada əmin-amanlığın yüksək səviyyədə qorunduğu təhlükəsiz ölkələrdən biri olmaqla asayişin təmini, cinayətkarlıqla mübarizədə müsbət nəticələrə görə MDB, eləcə də Şərqi Avropa məkanında öncül mövqe tutduğu hər kəsə bəllidir. O da yaxşı məlumdur ki, respublikamızda insanların qanuni mənafelərinin, mülkiyyətinin və hüquqlarının qorunması, vətəndaş məmnunluğunun təmin edilməsi sahəsində də əhəmiyyətli işlər görülür.

Polis əməkdaşları tərəfindən kobud rəftar və digər bu kimi neqativ hallar barədə vətəndaşlardan gələn bütün müraciətlər nazirliyin müvafiq qurumları tərəfindən dərhal araşdırılır, nəticəsindən asılı olaraq, hər bir fakt öz obyektiv qiymətini alır. Digər tərəfdən, daxili işlər orqanlarının Müvəqqəti Saxlama yerlərində müasir informasiya texnologiyalarının xidməti fəaliyyətdə tətbiqi, DİN rəhbərliyinin, Prokurorluğun, Ombudsman Aparatının, müvafiq mandata malik beynəlxalq və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin nəzarətinin olduğu, monitorinqlərin keçirildiyi, nəticələr barədə ictimaiyyətin vaxtaşırı məlumatlandırıldığı, bu zaman saxlanılan və istintaq altında olan şəxslərin saxlanılma şəraitindən, polisin rəftarından şikayətçi olmadıqları hüquq müdafiəsi ilə məşğul olanlara yaxşı bəllidir. Lakin bəziləri ya bu adi həqiqətləri görmür, yaxud görmək istəmirlər.

Azərbaycan bir hüquq dövlətidir, cəmiyyət qanunlarla idarə olunur. Dövlət, onun güc strukturları da hər zaman haqqın, ədalətin tərəfində, vətəndaşının yanındadır. Saxta "siyasi məhbus", guya işgəncəyə, təzyiqə məruz qalan saxlanılan şəxslərin siyahısını hazırlayaraq beynəlxalq təşkilatlara göndərib, bu yolda özlərini həqiqi hüquq müdafiəçiləri sayan şəxslərin cəmiyyətdə daha faydalı işlərlə məşğul olması yəqin ki, onların özlərinin də mənafelərinə xidmət edərdi.

Başabəla "ekspertlər"in, "hüquq müdafiəçiləri"nin nümunə kimi göstərdikləri dövlətlərdə xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmanlıqla həlak olan polis əməkdaşlarının fədakarlığı, mənəvi keyfiyyətləri örnək kimi təqdir olunur, onların mənalı həyatından, cəmiyyət, hər bir vətəndaş üçün gərəkli fəaliyyətlərindən bəhs edən bədii, sənədli filmlər çəkilir, əsərlər yazılır. Bizdə isə biriləri vətəndaşların təhlükəsizliyi, asayişin, əmin-amanlığın keşiyindədir, bu yolda hətta həyatlarını da qurban verirlər, digərləri isə iğtişaşlar yaratmaqla, aranı qarışdırmaqla sabitliyə, dövlətçiliyə qəsd edən, polis əməkdaşlarını qətl etməkdən belə çəkinməyən ünsürlərin guya ki, "hüquqları"nı müdafiə edir, onların istintaq prosesində guya işgəncələrə məruz qalmalarına dair dezinformasiyalar yaymaqla sonuncuları özlərinin "siyasi məhbus" siyahılarına salırlar. Bu yerdə Məmməd Arazın sözləri yada düşür: "Vətən daşı olmayandan..."

***Orxan Mansurzadə, polis polkovniki***

# VETERANLARLA GÖRÜŞ

## NÜMUNƏVİ XİDMƏTƏ RUHLANDIRIR

**DİN Daxili Qoşunlarının veteranları hərbi qulluqçularımızın hərbi-vətənpərvərlik tərbiyəsi işində fəal iştirak edirlər. Bu istiqamətdə veteranların fəaliyyəti çoxşaxəlidir. Hərbi hissələrdə şəxsi heyətlə keçirilən görüşlərdə onların maraq doğuran çıxışları, həyat təcrübəsindən irəli gələn tövsiyələrini çatdırmaları, dəyərli öyüd-nəsihətləri hərbi qulluqçularımızın mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə layiqli töhfələr verir.**

Bu yaxınlarda Veteranlar Şurasının sədri Çingiz Daşdəmirov, sədr müavini Telman Aslanov, Şuranın üzvü Səfxan Bayramov və bu sətirlərin müəllifi Lənkəran rayonunda yerləşən hərbi hissənin komandanlığı və şəxsi heyəti ilə görüşdü.

Cənub bölgəsində ictimai təhlükəsizliyin keşiyində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən hərbi hissənin keçdiyi şərəfli yol təqdirəlayiqdir. Veteranlarımızın bir qismi vaxtilə bu hərbi hissənin tərkibində Vətənin müdafiəsi naminə döyüş yolu keçib, eləcə də ictimai təhlükəsizliyin təmin olunması üzrə xüsusi əməliyyatlarda iştirak edib. Hərbi hissənin formalaşması və inkişafında veteranların əməyi bu gün də unudulmur.

Hərbi hissədə öncə komandir, polkovnik Rüstəm Dəmirovla söhbət etdik. O, özü də müharibə veteranıdır. Zəngin xidmət təcrübəsinə malikdir. Veteran silahdaşlarına həmişə hörmətlə yanaşır. Söhbət zamanı döyüş xatirələrindən, hərbi qulluqçuların mübariz xidmətindən, hissənin bugünkü həyatından danışıldı, hərbiçilərin sosial rifahının yüksəldilməsi yönündə qəbul edilən qərarların böyük ruh yüksəkliyi yaratdığı vurğulandı.

Veteranlar Şurası ilə hərbi hissənin əlaqələrinin inkişafı, birgə tədbirlərin təşkili, bölgədə yaşayan veteranlarla iş mövzusunda maraqlı fikir mübadiləsi aparıldı. Qeyd edim ki, hərbi hissənin yerləşdiyi rayonda yaşayan, ehtiyata buraxılmış hərbi qulluqçularımız Ağahüseyn Hüseynov və Sevinc Şükürova da keçirilən görüşlərdə iştirak etdilər.

Hərbi hissənin ərazisi ilə tanış olduq, şəxsi heyətin xidmət şəraiti ilə maraqlandıq. Burada səliqə-sahmanın, daxili qayda və nizamın saxlanılması, ünsiyyətdə olduğumuz hərbi qulluqçuların nəzakətli davranışı xoş təəssürat yaratdı.

Şəhid hərbi qulluqçularımızın xatirəsinə ucaldılmış abidəni ziyarət etdik. Həyatlarını Vətən yolunda qurban vermiş şəhidlərimizin xatirəsi ehtiramla anıldı.

Sonra hərbi hissənin şəxsi heyəti ilə maraqlı görüş oldu. Polkovnik R.Dəmirov tədbiri açaraq veteranları təqdim etdi, belə görüşlərin şəxsi heyətə ruh yüksəkliyi aşıladığını nəzərə çatdırdı.

Çingiz Daşdəmirov tədbirdə çıxışında qeyd etdi ki, hərbi hissələrimizin xidməti-döyüş fəaliyyətində əldə etdiyi uğurlar veteranları da sevindirir və haqlı qürur hissi doğurur. O, qoşunların formalaşması və inkişafında veteranların fəaliyyətinə toxundu, onların ön cəbhədə çətin döyüş sınaqlarından keçdiklərini, habelə respublikamızın paytaxtı və bölgələrində ictimai asayişin və təhlükəsizliyin qorunması yönündə üzərlərinə düşən tapşırıqları vicdanla yerinə yetirdiklərini bildirdi.

Veteranlar Şurasının sədri Daxili Qoşunların şəxsi heyətinin dövlət başçısının diqqət və qayğısı ilə əhatə edildiyini, hərbi hissələrdə yaradılmış müasir standartlara cavab verən xidmət şəraitinin, hərtərəfli təchizatın bunun əyani təsdiqi olduğunu vurğuladı.

Tədbirdə çıxış edən T.Aslanov, S.Bayramov, S.Şükürova hərbi qulluqçuların şücaət nümunələri, müsbət ənənələr, döyüş ruhunun qorunub-saxlanılmasının vacibliyi, hərbi xidmətdə nizam-intizamın, vətənpərvərlik əqidəsinin, hərbçi ləyaqətinin, hərbi kollektivçiliyin rolu və əhəmiyyəti, ordu quruculuğunda əldə olunan uğurlar, ölkəmizin inamlı inkişafı barədə fikirlərini çatdırdılar.

Çıxışlardan sonra hərbi hissənin xidməti ilə fərqlənən, habelə ad günü olanlara kitablar təqdim olundu, xatirə şəkli çəkdirildi.

Polkovnik R.Dəmirov görüşə yekun vuraraq, veteranlara şəxsi heyət adından təşəkkürünü bildirdi.

***Yalçın Abbasov, istefada olan kapitan***

# BURA AZƏRBAYCANDIR!

***“Mən Yeni Zelandiya vətəndaşıyam. Bu sirli-sehirli ölkə haqqında həmvətənlərimdən eşitdikdən sonra Azərbaycana gəlməyə qərar verdim. Hava limanında hiss etdim ki, böyük bir xalqın mədəniyyətinə və tarixinə şahidlik edəcəyəm. Gülərüz insanlar, xoş ünsiyyət mənə qəribliyimi unutdurdu. Hələ polisləri demirəm. Məhz onların köməyi ilə əlimdəki xəritədə gəzmək üçün nişanladığım yerlərin seyrinə çıxdım. Bakı gəziləsi, görüləsi və seviləsi şəhərdir. O sanki Xəzərin qoynunda uyuyan, hərdən də şıltaqlıq edən körpəyə bənzəyir. Zəngin Azərbaycan mətbəxindən daddığım təamların, “Qız qalası”nın, Şirvanşahlar sarayının, “Alov” qüllələrinin şəkillərini dostlarıma göndərəndə onların mənə cavabı bu oldu: “Sən doğurdan da Şərqin ən qədim və sabit ölkəsindəsən”.***

***Lənkəranda isə heç vaxt unuda bilməyəcəyim hadisə başıma gəldi. Pul kisəmi, bank kartlarımı itirdim. Köməksiz vəziyyətdə qaldığımı görənlər mənə polisə üz tutmağı məsləhət bildilər. Polisə başıma gələnləri danışdım. Məndən əşyalarımı hansı şəraitdə itirməyimi soruşdular. Düzü, inanmırdım ki, tapılsın. Polislər məni Şöbəyə gətirdilər. Hələ, üstəlik, dadlı Lənkəran çayına da qonaq etdilər. Çox keçmədi ki, sənədlərim və pul kisəm tapıldı. Sən demə, mən onları avtobusda unutmuşammış. Mən Azərbaycanı və onun saf insanlarını sevdim. Burdan Vətənimə bu ölkəyə sonsuz sevgi və rəğbət hissi ilə gedirəm. Hörmətlə, Lii Qriin”***

Ölkəmizdə qonaq olan bu əcnəbinin fikirlərini oxuduqdan sonra bir daha əmin oldum ki, hansı dinə mənsub olursa-olsun, əgər insan haqq olanı görürsə, seçirsə və onun arxasınca gedirsə, deməli, o, həqiqətən də yer üzünün əşrəfidir.

Lakin...

Azərbaycan adı gələndə “kürkünə birə düşənlər”, yuxusu ərşə çəkilənlər, bu ölkənin dünyaya Günəş kimi doğmasını görməzlikdən gələnlər, sən demə, içimizdəkilərdən çox xaricdə imiş. Qəribəsi budur ki, onlar həm özlərinə “azərbaycanlıyam” deyənlərdir, həm də elə qeyriləri.

Yalan ayaq tutar da, yeriyər də. Amma çox uzağa gedə bilməz. Həqiqətin gözünə dik baxmağın özü də bir hünərdir. Qoltuqlara sığınmaqla ömür sürməyi özünə şərəf-şan bilənlərin “yaşayırıq” deməyə nə dərəcədə haqları çatır deyə bilmərəm. Düzdür, hər bir yaradılmışın tanrıdan ömür payı var. Amma bu ömrü doğulduğun yurdu, göz açdığın torpağı, mənsub olduğun xalqı aşağılamaqla, onun adını ləkələməklə yaşayırsansa, deməli, sən elə yox kimisən. Kökü torpaqda olmayanlar quruca bir səsdən belə yıxılar, məhv olar.

Dil pəhləvanı olmaqla Mübariz, Fərid və Aprel şəhidləri kimi qəhrəman olmağın arasındakı fərqin izahına ehtiyac yoxdur.

Elə bu günlərdə yenə də sosial şəbəkələrdə məlum çempionatın final oyununun Bakıda keçirilməsi ilə bağlı müzakirələr diqqətimi çəkdi. “Suyu özgələrdən gələn dəyirmanların” üyüdüb-tökdüklərini oxuduqdan sonra ürəyimdən təkcə bu keçdi: “Adamın Allahı olar!”. Ancaq, sən demə, Vətəndən üz döndərənlərin nə Allahı, nə də din-imanı olurmuş. Alınıb-satılan vicdanlardan başqa nə gözləmək olar ki? Və ən böyük dərd budur ki, ötən illər ərzində ölkəmizin evsahibliyi etdiyi möhtəşəm tədbirlərin necə təhlükəsiz keçirilməsini, etibarlı qorunmasını belə tez unudanların çaldığı havaya qol qaldıranların, onların zurnasına züy tutanların milli kimliyi haqlı olaraq sual doğurur: “Onlar doğurdanmı azərbaycanlıdır?”...

Azərbaycan inkişaf edir, güclənir və bu gün dünyanın ən sabit, təhlükəsiz ölkələrindən biridir. Bunu biz demirik: “Sapı da, baltası da” özgədən olanların uydurmalarının doğru və yalan olduğunu isbatlamaq üçün ölkəmizə “sınaq üçün”, sanki bir “test” edirmiş kimi gələnlərin də fikirləridir. Gəlirlər, əsl həqiqəti görürlər, vicdanları qarşısında bəlkə də hər gün suçlu görkəmi alırlar...

***Deməyə, yazmağa vaxt da var, fakt da. Ancaq biz elə bunu deməklə kifayətlənirik: Səs-küy salan çox olsa da, karvan öz yolundadır...***

*H.Təmirov,*
*polis mayoru*

**Bu gün bəşəriyyəti düşündürən və rahatsız edən ən ağrılı problemlərdən biri də cəmiyyətin ciddi bəlasına, xalqın təhlükə mənbəyinə çevrilən narkomaniyadır. Gənc nəsli təkcə qorumaq yox, bu bəlaya qarşı ciddi mübarizə məqsədilə polisin fəal iştirakı, çox hallarda təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri, ali məktəb tələbələri və gənclər arasında müntəzəm olaraq maarifləndirmə tədbirləri keçirilir.**

# BEŞ MƏKTƏBDƏ BİR GÖRÜŞ

Belə tədbirlərdən biri də Zərdab rayonunun 1 saylı məktəb-liseyində gerçəkləşdi. Görüşdə rayonun 4 məktəbinin müəllimləri və şagirdləri də iştirak edirdi.



Əvvəlcə məktəb-liseyin direktoru Vüsalə Kərimova narkomaniyanın gənclər arasında törətdiyi fəsadlardan pedaqoqların və ailələrin bu işdə rolundan danışdı.

Zərdab Rayon Polis Şöbəsinin rəisi, polis mayoru Azər Əfəndiyev çıxışında qeyd etdi ki, respublikamızda cinayətkarlığa qarşı mübarizə çərçivəsində narkotiklərin qanunsuz dövriyyəsinə qarşı kompleks tədbirlər görülür. Ölkə ərazisində narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı dörd Dövlət Proqramı qəbul edilmişdir. Dövlət Proqramlarının həyata keçirilməsi üzrə hökumət strukturlarının fəaliyyətinin əlaqələndirilməsi Narkotik Vasitələrin, Psixotrop Maddələrin və onların Prekursorlarının Qanunsuz Dövriyyəsi və Narkomanlığın Yayılması ilə Mübarizə üzrə Dövlət Komissiyası tərəfindən həyata keçirilir. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı respublikanın hüquq-mühafizə orqanları tərəfindən aşkar olunmuş 18903 cinayət faktı üzrə 3,7 ton marixuana, 3,1 ton heroin, 1,6 ton tiryək 724 kiloqram həşiş olmaqla, ümumilikdə 9,5 ton narkotik vasitə və 413 kiloqram prekursor götürülmüşdür.

Dövlət tərəfindən bu sahədə böyük işlər görüldüyünü diqqətə çatdıran A.Əfəndiyev əlavə etdi ki, DİN rəhbərliyinin göstərişinə əsasən, mütəmadi olaraq, belə maarifləndirmə tədbirləri də keçirilir.

Erkən nikah və onun fəsadları, dini radikalizm mövzularına toxunan RPŞ rəisi bu məsələlərin cəmiyyətimizin ağrılı problemi olduğunu, bu işdə də polisə vətəndaşların fəal dəstək olmasının vacibliyini önə çəkdi.

Tədbirdə çıxış edən Rayon İcra Hakimiyyəti başçısının müavini Ramo Hacıyev, Gənclər və İdman İdarəsinin əməkdaşı Əvəz Soltanov, Təhsil Şöbəsinin nümayəndəsi Gülsurə Novruzova, RPŞ-nin Kadr və peşə hazırlığı üzrə qrupunun baş inspektoru, polis kapitanı Murad Asifoğlu, YYÇPİT qurupunun inspektoru, polis leytenantı Oktay Verdiyev gəncləri bu bəladan qorumaq üçün yalnız birgə mübarizənin səmərə verəcəyindən danışdılar.



Tədbirin sonunda məktəbliləri maraqlandıran suallar cavablandırıldı.

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# XATIRLADIRIQ Ki, UNUDULMASINLAR

**Təəssüflənməyə bilmirsən. Biz hələ Azərbaycan ordusunu formalaşdıran, bəlkə də əlinə ilk dəfə silah alıb onu düşmənə tuşlayanlara: “Silahı düz tut, hədəfi nişan al”,- deyən müstəqil Azərbaycan Polisinin obrazını romanlaşdıra bilməmişik. Həm ərazi bütövlüyümüzü, həm də sabitliyi qorumaq üçün döyüşə-döyüşə hər iki cəbhədə sinəsini gülləyə, süngüyə sipər edənlərin xatirəsini əbədiləşdirməkdə ədəbiyyatımız, təəssüflər olsun ki, gecikib. Elə kinomuz da...**

Kiməsə zorla “bunu et”, “bunu yaz”, “bunu çək” deyə bilmərik. Ancaq hər ötən gün bizi dünəndən uzaqlaşdırır. Sonradan yarasının qaysağını qopardığımız biri bizə əzizi, doğması haqqında danışmaqda çətinlik çəkəcək, qəhər onu boğacaq, kədər yelkənini üstünə sərəcək və beləcə başladığımız iş yarımçıq qalacaq.

Ancaq nə yaxşı ki, bu gün müharibələrin odundan-alovundan çıxan, 85-i adlasa da bu yolda, yoruldum, qocaldım, unutdum demir “Mübariz keşikdə”. Onları gerçəkdən unutmur, axtarıb-tapır, xatirələrini sinəsində diri saxlayır. Hələ yazdıqlarımız qədər yazmadıqlarımız var...

Yaşasaydı bəlkə də şahidi olduqlarını təqaüdə çıxdıqdan sonra müəllim səbri, müəllim dəyanəti ilə yazıya alardı. Ömür ona vəfa edərdi. Düşmən gülləsi isə çox amansz idi...

Əlimdə olan kitabı vərəqlədikcə beynimdən keçən ilk fikir bu oldu: “Bütün yazılanları ümumiləşdirib onu fəsillərə böldükdən sonra samballı bir roman ortaya qoymaq olar”. Və birdən həmsöhbətimin şəklini görəndə duruxdum. “Mən necə inanım ki, atam-pəhləvan cüssəli, o məğrur insan bir daha isti ocağına gəlməyəcək. Evimizin qapısını açmayacaq. Ata, axı, sən bundan sonra bizə lazım idin. Bizi arzuladığın xoşbəxtliyə qovuşdurmamış, sənsizliyə alışdırdın”...

Sonuncu cümləni özüm də bilmədən yüksək səslə oxuyanda aradakı sükutu həmkarımın: “O, mənim atamdır” fikri pozdu. Heç nə deyə bilmədim...

Bilirəm, söhbətin kimdən getdiyinin marağındasınız. Elə isə...

**Polis polkovnik-leytenantı Ağahüseyn Aslanov** 1950-ci ildə İsmayıllının Əhən kəndində doğulub. 1976-cı ildə daxili işlər orqanlarına qəbul edilib. İsmayıllıda, Abşeronda, Göyçayda bir çox vəzifələrdə çalışıb. O, 1994-cü il aprelin 25-də Ağdamda şəhid olub...

Oxuduğu məktəbə baş çəkib, büstünü ziyarət etdim. Foyedəki xatirə lövhəsinin altına qoyulmuş qızılgüllər təzə idi. Barəsində onu tanıyanlar və müəllim yoldaşları xoş xatirələrini danışdılar. Həm də ona sevindim ki, məktəbin şagirdləri İsmayıllının ilk şəhid polisinin kim olduğunu bilirlər. Adı verilən küçə isə başdan-başa yaşıllığa, gül-çiçəyə bürünüb...



**Polis mayoru Namiq Ağahüseyn oğlu Aslanov** 1976-cı ildə İsmayıllıda doğulub. 1994-cü ildə daxili işlər orqanlarına qəbul olunub. Abşeron RPİ Post-Patrul Xidmətində bərkə-boşa düşüb. Elə ilk gündən ona “Atasının balasıdır” deyiblər. DİN-in Polis Akademiyasını bitirib.

Qəbələ Rayon Polis Şöbəsinə əməliyyat müvəkkili təyin olunub. Şamaxıda, Masallıda bir çox vəzifələrdə çalışıb. Hazırda İsmayıllı RPŞ-də şəxsi heyətlə iş üzrə rəis köməkçisidir.

Ailəsində gələcəyin polisi, atasının adını daşıyan və yaşadan nəvə Ağahüseyn böyüyür.

“Şəhid polislərimizi tanımaq, onların övladlarını axtarıb-tapmaq, ziyarət etmək həm savabdır, həm də tariximizə, torpağımıza sayğıdır. Biz məktəblərə gedəndə təkcə cəmiyyətimizi narahat edən problemlərdən-narkomaniyadan, erkən nikahlardan, dini radikalizmdən danışmırıq, həm də şəhidlik zirvəsinə ucalan, asayişin mühafizəsi zamanı həlak olan həmkarlarımızı tanıdırıq. Elə bu yaxınlarda şəhid Ağahüseyn Aslanovun adını daşıyan 2 nömrəli orta məktəbin həyətində qoyulmuş büstü ziyarət edərkən bir daha şahidi olduq ki, torpaq uğrunda canını verən oğullar unudulmur və yaddan çıxmırlar.”

Bunu da Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Şəmşir Kazımov dedi.

***Tarix yazılanda yadda qalır. Yazılmayanda isə xatirəyə çevrilir. Unutmayaq, xatırlayaq ki, xatırlasınlar.***

*T. Hafiz*

**DİN Baş Dövlət Yol Polisi İdarəsinin təşəbbüsü ilə Yol Patrul Xidməti Alayının 1-ci tağımının Saray qəsəbəsində yerləşən stasionar postuna Abşeron məktəblilərinin ekskursiyası təşkil edilib.**



# EKSKURSİYADA OLDULAR

“Yol Polisimizlə bir gün” adlı tədbir «Azərbaycan Respublikasında yol hərəkəti təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı»nın məqsədlərinə uyğun olaraq, Daxili İşlər və Təhsil Nazirliklərinin həyata keçirdikləri birgə tədbirlər çərçivəsində baş tutub. Ekskursiyanın keçirilməsində əsas məqsəd, yol hərəkəti təhlükəsizliyinin təbliği ilə bağlı təhsil müəssisələrində aparılan maarifləndirmə işlərini daha da genişləndirmək, uşaqları və yeniyetmələri bu prosesə fəal cəlb etməkdir.

Ekskursiyada Xırdalan şəhər 1, 2, 4, 5, 7 və 9 nömrəli tam orta məktəblərin yüksək təhsil və intizam göstəriciləri ilə fərqlənən bir qrup şagirdi və onları müşayiət edən təhsil işçiləri iştirak ediblər.

Stasionar postda şagirdlərə Yol-Patrul Xidməti inspektorlarının gündəlik fəaliyyəti, yol hərəkət iştirakçılarının rahat, fasiləsiz və təhlükəsiz hərəkəti üçün görülən tədbirlər, inzibati hüquqpozmalara, eləcə də cinayətkarlığa qarşı aparılan mübarizə barədə məlumatlar verilib. Məktəblilər xüsusi texniki vasitələrlə tanış olublar və postun iş fəaliyyətini canlı izləmək imkanı qazanıblar.

Daha sonra baş idarənin inzibati binasına gələn şagirdlər burada iş otaqları, konfrans zalı ilə tanış olub, Operativ Müşahidə Mərkəzində, Növbətçi Hissədə iş prosesini izləyiblər.

Tədbir zamanı şagirdlərin sualları cavablandırılıb və onlara Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən hədiyyələr təqdim olunub.

Qeyd edək ki, “Yol Polisimizlə bir gün” tədbirinin digər regionlarda da keçiriləcəyi nəzərdə tutulur.

*Anar Qafarov,*
*polis baş leytenantı*



***Mayın 24-25-də Respublika Olimpiya Mərkəzində 28 May – Respublika Gününə həsr olunmuş daxili işlər orqanları əməkdaşları arasında estafet qaçışı üzrə yarış keçirilib.***

# BAYRAMA HƏSR OLUNMUŞ YARIŞ KEÇİRİLİB

Yarışın əvvəlində “Respublika Günü”nün tariximizdəki rolu və əhəmiyyəti barədə geniş məlumat verilib.

Daha sonra yarışa start verilib.

Turnirə qatılmış 10 komandanı təmsil edən 60 idmançı əməkdaş öz bacarığını sınayıb.

Yarışın proqramına daxil olan 1000 metr məsafəyə estafet qaçışında Əlahiddə Çevik Polis Alayının əməkdaşları finişə hamıdan tez çataraq turnirin qalibi olublar. Komanda hesabında Daxili Qoşunların Baş İdarəsinin hərbçiləri ikinci, Sumqayıt Şəhər Polis İdarəsinin təmsilçiləri isə üçüncü yeri qazanıblar.

Yarışı baş hakim, DİN İdman Cəmiyyətinin İdman təlimi bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırovun rəhbərlik etdiyi hakimlər briqadasının üzvləri - polis polkovnik-leytenantları Elnur Həsənov, Seymur Qurbanbəyov, Munir Orucov, Mahir Əhmədov və polis mayoru Əlişan Tunc idarə ediblər.

Qalib komandaların kapitanlarına, üzvlərinə, məşqçilərinə kuboklar, medallar və qiymətli hədiyyələr təqdim olunub.

*Zeyni Hüseynov*

# MARAQ DÜNYASI

### DÜNYANIN ƏN KİÇİK RESTORANI

İki il əvvəl məlum olmuşdu ki, dünyanın ən kiçik oteli Kopenhagendə yerləşir. Şəhərin Vesterbro rayonunda olan bu oteldə qonaqlara 2,3x3 metr ölçüləri olan cəmi bir otaq təklif olunur. İndi isə Danimarka paytaxtında dünyanın ən kiçik restoranı açılacaq.

“Restauranten 1:1” adlı restoran cəmi bir nəfərə iaşə xidməti göstərəcək. Cırtdan restoranın yaradılması təşəbbüsü baş aşpaz Uilyam Milsted və "Irma" supermarketinə məxsusdur. Təşəbbüskarlar bildiriblər ki, bu restoran yeməyin əhəmiyyətini vurğulayan intensiv həssas təcrübəsi ilə seçiləcək. Burada siz təkbaşına yemək yeyəcək və ətrafdakılar diqqətinizi yayındırmayacaq.

Kiçik restoranda bir qonaq, ofisiant və aşpazdan başqa heç kim olmayacaq.

### TƏLİMAT HƏRRACA ÇIXARILIB

ABŞ-ın Aya missiyasının uğurla başa çatmasından 50 il ötür. Bu əlamətdar hadisə münasibətilə “Apollon-11” kosmik gəmisinin göyərtə jurnalı və Yerin süni peykinin səthinə enmək barədə yazılı təlimat hərraca çıxarılacaq.

Bu tədbir Amerika astronavtları Nil Armstronq və Bazza Oldrinin Ayın səthinə enməsinin 50 illiyi münasibətilə “Nəhəng sıçrayış: “Apollon-11-in 50 yaşının qeyd olunması” adlandırılıb.

Hərrac iyulun 18-də Nyu-Yorkda keçiriləcək. Bildirilib ki, həmin lot “bütün zamanların ən böyük macərası sayılan insanın Ayın səthinə enməsini göstərən unikal sübutdur”. Əlavə olunub ki, lota sahib olacaq şəxs ekipaj üzvlərinin yazdıqları qeydləri də nəzərdən keçirə biləcək. Bu, xəyalən həmin ana qayıtmağa imkan verəcək.

Göyərtə jurnalının hərracda yetərincə böyük məbləğə - 7-9 milyon dollara təklif olunacağı gözlənilir.

*R.Əliyeva*

# QAPINI AÇIN, OĞRU GƏLİB...



**Üst-başının tozunu çırpa-çırpa vanna otağına keçdi. Yuyunub çıxanadək yeməyi masanın üstündəydi. Bərk yorulduğunu bəhanə edib düz-əməlli bir şey yemədi. Ayaqüstü yarım fincan çay içib yataq otağına keçdi.**

**Kamranın bu hərəkəti evdəkiləri təəccübləndirsə də, heç kim ondan nə baş verdiyini soruşmadı. Artıq səs-küy olmasın deyə, digər ev əhli də yavaş-yavaş hərə öz otağına çəkildi. Təkcə ana nəsə baş verəcəyini gözləyirmiş kimi, oturduğu qoltuqdan tərpənmirdi.**

Birdən darvaza bərk-bərk döyülməyə başladı. Qadın ağır-ağır yerindən qalxıb könülsüz eyvana çıxdı:

*-Kimsən, ay bala?*

*-Axşamın xeyir, Şərəfnisə xala, mənəm, Seyidvəlidi...*

*-Bu vaxt xeyir ola, ay oğul.*

*-Narahat olma, xeyirdi. Kamran evdədi?*

Qadın cavab verməyə macal tapmamış içəridən Kamranın səsi gəldi:

*-Gözlə, gəlirəm.*

Sanki vaxtsız gələn qonağı bayaqdan gözləyirmiş kimi, Kamran tez-tələsik özünü həyətə atdı. Seyidvəli onun qolundan tutub bir kənara çəkdi. Nə danışdılarsa, Kamran hamının eşidəcəyi səslə: ***"Rəhmətliyin oğlu, gecənin bu vaxtı məndə o qədər pul nə gəzir,"***-dedi.

*-Ay bala, nə olub, yenə nəyi bölüşə bilmirsiz?*

*-Heç, Seyidvəli bazara mal aparır, deyir ki, ucuz qoyun düşüb. Tərslikdən məndə də pul yoxdu.*

Olanlardan xəbərsiz qadın: "İkisini al",-dedi:"Nəvələrim şəhərdən gələndə kəsərik". Sonra da təqaüdündən yığıb saxladığı 200 manatı Seyidvəliyə verdi...

Ramin Şıxəliyev maşının işıqlarını söndürüb gündüzdən nişanladıqları evə tərəf sürdü. Bir az aralıda düşüb tövlənin hasarına yaxınlaşdılar. İkisi sıçrayıb həyətə keçdi və ehmalca tövlənin qapısını açdılar. Sonra da əl fənərinin işığında beş qoyunu tövlədən çıxarıb digərlərinə qatdılar...

Saatlı rayon sakini Şivəxan Məmmədov mal-qarasının oğurlandığından bir də səhər xəbər tutdu. Dərhal Rayon Polis Şöbəsinə yollandı.

Fakt barədə RPŞ-nin rəisi, polis polkovnik-leytenantı Azər Tağıyevə məlumat verildi. Yaradılmış əməliyyat-istintaq qrupuna rəhbərlik əməliyyat işləri üzrə rəis müavini, polis polkovnik-leytenantı Fuad Məmmədova həvalə olundu.

Rayon ərazisində az vaxtda dalbadal törədilən bir neçə mal-qara oğurluğu narahatçılıq yaratmaya bilməzdi. Odur ki, növbəti rəisyanı müşavirədə hər şey lap başdan ətraflı müzakirə olundu, yeni tapşırıqlar verildi.

Bütün oğurluqların təxminən eyni vaxtda, eyni üsulla törədilməsi, hər dəfə də hadisə baş verən ərazidə "Tofaş" markalı avtomobilin görünməsi əməliyyatçıların diqqətindən yayınmadı. Düzgün və vaxtında aparılmış əməliyyat-istintaq tədbirləri tezliklə bəhrəsini verdi.

İlk olaraq, avtomobilin sahibi müəyyənləşdirildi. Əvvəllər də bir neçə dəfə məhkumluq həyatı yaşayan, "Danabaş Ramin" ləqəbi ilə tanınan R.Şıxəliyev polisə dəvət olundu. İsrarla:"Artıq bu işlərin başını buraxmışam, mənlik deyil",-desə də sübutlar və dəlillər qarşısında əməllərini etiraf etməli oldu.

Dəstənin digər üzvləri-Elnur Əliyev, Kamran Zeynalov, Seyidvəli İbrahimov da yaxalanaraq istintaqa təhvil verildilər. Aparılmış sonrakı tədbirlər nəticəsində dəstənin Saatlıda 4, Sabirabadda 2, İmişlidə 1 oğurluq törətmələri müəyyən olundu.

***O ki, qaldı Şərəfnisə xalanın 200 manatına, bu da bivec övladın vəbalına yazıldı...***

***Çingiz Şıxverdiyev,***
***polis polkovnik-leytenantı***

---

## 2019-cu ilin II yarısı üçün "Mübariz keşikdə"yə- öz qəzetinizə abunə olmağa tələsin!

---

# ELAN

2019-cu il iyun ayının 8-də saat 8:00-da Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov tərəfindən Gəncə, Göygöl, Samux, Kəlbəcər, Şəmkir, Ağstafa, Tovuz, Gədəbəy, Qazax, Daşkəsən, Goranboy, Xocalı və Naftalan şəhər, rayon polis orqanlarında vakant (103 ştat) olan Post-Patrul Xidmətinin polis nəfəri (gecə xidməti) vəzifələrində xidmətə qəbulla bağlı DİN-in Daxili Qoşunlarının Gəncə şəhərində yerləşən hərbi hissəsində sıra baxışı keçiriləcək. Sıra baxışında yalnız qeyd olunan rayonlarda yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan, aşağıdakı şərtlərə cavab verən şəxslər iştirak edə bilərlər:

- ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Sıra baxışına gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsilli və xarici dillərdən birini (əsasən, ingilis dili) sərbəst bilən vətəndaşlara üstünlük veriləcək.

Əlavə olaraq nəzərə çatdırılır ki, boyu 180 santimetrdən aşağı olan və müsabiqənin digər şərtlərinə uyğun gəlməyən namizədlər keçid məntəqəsində yoxlanılaraq sıra baxışına iştiraka buraxılmayacaqlar.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-97-52; (012)-590-92-54; (012)-590-93-45; (012)-590-92-37.**

***Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi***

---

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

## 2019/2020-ci TƏDRİS İLİ ÜÇÜN DİN-in POLİS AKADEMİYASINA ƏYANİ TƏHSİL ÜZRƏ KURSANTLARIN QƏBULUNA DAİR

# ELAN

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə əyani təhsilə 25 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində I ixtisas qrupunun fənləri üzrə keçirilmiş imtahanda 350-dən yuxarı bal toplamış, Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2019-cu ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları sırasından oğlanlar iştirak edə bilərlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2019-cu ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2019-cu il may ayının 28-dən iyun ayının 28-dək hər gün (bazar günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək Daxili İşlər Nazirliyinin inzibati binasında (daxili telefon: 12-48) həyata keçiriləcək. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);
- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);
- yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;
- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);
- oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;
- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

***Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 590-92-48, (012) 590-99-47, (012) 454-12-78***

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunurlar.

Abituriyentlər DİN-in Tibb İdarəsinin Xüsusi Həkim Komissiyasında müayinədən, habelə fiziki hazırlıq imtahanı və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma - çəkisi 80 kiloqramadək olanlar üçün – 8 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 6 dəfə; qaçış - 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılıb endirilməsi – 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Seçmə komissiyalarının iş vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin ***www.mia.gov.az*** internet saytında yerləşdiriləcək.

Daxili İşlər Nazirliyi tərəfindən keçirilən sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir və birinci mərhələdə buraxılış imtahanı fənləri üzrə, ikinci mərhələdə isə I ixtisas qrupunun fənləri üzrə keçirilmiş test imtahanlarının nəticələrinə əsasən kursantlar seçilir.

İkinci mərhələnin ikinci imtahanının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilmişdir. Abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust-14 sentyabr 2019-cu il tarixdə Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 16 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "XTB050615 - informasiya təhlükəsizliyi" ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə, onlar daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

---

## Mayın 22-dən 28-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 158 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 64 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 170 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 10 nəfər, borclu şəxs qismində axtarışda olan 88 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 11 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 17 nəfər ölmüş, 22 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 111 fakt müəyyən edilmişdir.

---

Daxili İşlər Nazirliyinin rəhbərliyi Şuşa RPŞ-nin rəisi İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Kadrlar İdarəsinin rəisi Rafiq Abbasov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti iş yoldaşları Afaq Əliyevaya anası
**XALİDƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Binəqədi RPİ-nin şəxsi heyətl üzrə rəis köməkçisi Vüsal Rüstəmova atası
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Ramil Baloğlanov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Suraxanı RPİ-nin şəxsi heyətl üzrə rəis köməkçisi İbrahim İsmayılova anası
**GÜLARƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səbail RPİ-nin rəisi Cavid Muradov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xətai RPİ-nin rəisi İlqar Məmmədov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi Muradəli Babayev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Quba RPŞ-nin rəisi Süleyman Neymətov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Beyləqan RPŞ-nin rəisi Rəşid Piriyev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi RPŞ-nin rəisi Ənvər Həsənov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şabran RPŞ-nin rəisi Məhəmməd İbrahimov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti iş yoldaşları Asif Ağayevə əzizi
**RAMİLİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şuşa RPŞ-nin şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

Redaktor
CAVİD XASPOLADOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.978

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 16:00